# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**XİDMƏTDƏN İSTİFADƏYƏ DAİR**

## TƏLİMAT

**Xidmətin adı: “Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu”**

# 1.

Malın mənşə ölkəsini təsdiq edən sertifikatı (Ümumi forma, CT-1, Forma A) almaq üçün istifadəçi Nazirliyin saytında yerləşdirilmiş Elektron xidmətlər bölməsinə daxil olaraq “Mənşə sertifikatı” keçidi vasitəsilə müvafiq xidmətə müraciət edir.



# 2.

Sistemə keçid mərhələsində istifadəçiyə məxsus vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) müvafiq bölməyə daxil edilir, “Mən robot deyiləm” işarəsi seçilir, ekranda görünən suallar cavablandırılır və “Göndər” düyməsi basılır.






# 3.

Xidmətə müraciət bölməsinin yuxarı hissəsindəki sistem tərəfindən avtomatik doldurulmayan boş sahələr istifadəçi tərəfindən doldurulur (* - ulduz işarəsi ilə işarələnmiş sahələrin doldurulması mütləqdir).

***İstifadəçi fərdi sahibkar olduqda***




***İstifadəçi hüquqi şəxs olduqda***



Hüquqi şəxsin rəhbərinin FİN-i (Fərdi İdentifikasiya Nömrəsi) tələb olunan sətrə şəxsiyyət vəsiqəsinin fotoşəkil olan üzündə yerləşən müvafiq simvollar daxil edilir və “Yoxlamaq” düyməsi basılır. Sistem müvafiq məlumat bazasında axtarış edərək daxil edilən FİN-in sahibi barədə məlumatları (Soyadı, adı, atasının adı) növbəti sətirdə əks etdirir.

***QEYD:*** *FİN kod 7 simvoldan (“İ” və “O” hərfləri istisna olmaqla ingilis əlifbasının hərflərindən və rəqəmlərdən) ibarətdir. Şəxsiyyət vəsiqəsinin FİN-kodunu axırıncı sətirdə çap edilmiş son səkkiz simvolun ilk yeddisi təşkil edir. Misal üçün, şəkildəki şəxsiyyət vəsiqəsində qırmızı çərçivəyə alınmış 7 simvol (“94FMDDD”) FİN-koddur, sonuncu simvol isə, yəni “4” rəqəmi, nəzərə alınmır.*




Xidmətə müraciət bölməsinin tələb olunan sənədlərin sistemə yükləndiyi aşağı hissəsində ərizə forması sistemdən endirilir ***(1)***, elektron doldurularaq kompyuterin yaddaşında saxlanılır ***(2)*** və müvafiq sətirə yüklənilir ***(3)***.

***(1)***



**(2)**




**(3)**




Malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi üçün tələb olunan digər sənədlər skan edilərək müvafiq bölmələr vasitəsilə sistemə yüklənilir və "Göndər" düyməsi basılır.







Sənədlər sistem tərəfindən qəbul olunduqdan sonra ekranda təsdiq bildirişi görünür və istifadəçinin müvafiq bölməyə daxil etdiyi elektron poçt ünvanına müraciət barədə məlumat göndərilir.




***DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK !***